**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**LEYLA FƏRHAD qızı TAĞIZADƏ**

# AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASININ SÜRƏTLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ (AQRAR SAHƏNIN TIMSALINDA)

**İxtisas:**5310.01 - Dünya iqtisadiyyatı
5308.01 - Ümumi İqtisadiyyat

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktori, professor
**Amil Məhəmməd oğlu Məhərrəmov**

iqtisad üzrə fəlsəfə doktoru
**Famil Vəli oğlu Rüstəmov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Universiteti "Beynəlxalq iqtisadi münasibətlər" kafedrası

Dissertasiya işinin müdafiəsi 06 aprel 2018-ci il saat $14.^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 02 mart 2018-ci ildə göndərilmişdir.

**D.01.181 Dissertasiya**
**Şurasının elmi katibi ., i.ü.f.d.** **S.T.Şıxəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** XX əsrin sonu və XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının inkişafının ən mühüm nəticəsi qloballaşma olmuşdur. Bunlarla yanaşı, artıq qaçılmaz bir prosesə çevrilən qloballaşma dövlətlər, cəmiyyətlər, təşkilatlar və insanlar arasında informasiya mübadiləsinin sürətlənməsinə gətirib çıxarmışdır ki, ayrı-ayrı milli dövlətlər və təsərrüfat subyektləri arasında inteqrasiya əlaqələrini zəruri edir. Bu qloballaşma mühitində fəaliyyət göstərmək və milli iqtisadiyyat çərçivəsində rəqabətqabiliyyətli məhsul istehsal etmək gündəmə çıxan ən mühüm məsələlərdəndir. Belə ki, qlobal məkanda rəqabətə tab gətirmək və milli iqtisadiyyatı inkişaf etdirmək qaçılmazdır. Bu baxımdan hesab edirik ki, seçilən dissertasiya mövzusu günümüzlə səsləşir və aktualdır.

Aqrar sahənin inkişafı ölkənin ixrac imkanlarını da artıraraq inteqrasiya proseslərinin intensivləşməsinə öz təsirini göstərir. Bütün bunlarla yanaşı, ölkəmizdə aqrar sahə yetərincə inkişaf etməmişdir və bu sahənin bir sıra məhsulları üzrə hələ də idxaldan asılılıq qalmaqdadır. Azərbaycan Respublikasının əksər regionları ölkənin qoşulduğu Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat layihələri ilə əhatə olunmuşdur ki, bu da aqrar sahənin, aqrar-sənaye məhsullarının xarici bazarlara çıxş imkanlarını artırır. Ölkəmizin zəngin iqlim ehtiyatları, məhsuldar torpaqları və əlverişli coğrafi mövqeyi, bu sahəyə dünya bazarına inteqrasiyanın vacib istiqamətlərindən biri kimi yanaşmağa imkan verir.

Qeyd edilənlərdən göründüyü kimi, aqrar sahə məhsullarının ixracı üçün geniş imkanlar mövcuddur. Təbii ki, aqrar sahəni inkişaf etdirərək kənd təsərrüfatı məhsullarını son məhsul kimi xarici bazarlara çıxarmaq daha səmərəlidir. Aqrar sahənin təkmilləşdirilməsi ilə dünyaya inteqrasiyanın daha da sürətləndirilməsi mühüm sosial-iqtisadi və strateji əhəmiyyət kəsb edir. Məhz, bu səbəbdən də seçilmiş tədqiqat mövzusu günümüzün reallığından irəli gələn bir zərurət kimi olduqca mühüm aktual problemləri əhatə edir və xüsusi əhəmiyyətə malikdir.

**Problemin öyrənilmə səviyyəsi:** İstər ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, istərsə də aqrar sahənin inkişafı məsələləri, ayrılıqda bir çox yerli və xarici alimlərin tədqiqat obyekti kimi seçilmişdir. Lakin, Azərbaycan Respublikası timsalında aqrar sahə kompleksi qlobal məkana inteqrasiya istiqamətlərindən biri kimi, ayrılıqda tədqiq edilməmişdir.

Eyni zamanda, bütövlükdə dünya bazarına çıxış, qlobal məkana inteqrasiya, aqrar sahənin formalaşdırılması və inkişafı, bu sahədə münasi-

bətlərin təkmilləşdirilməsi, istehsal-kooperasiya münasibətlərinin yaradılması, aqrar məhsulların emalı və daşınması xidmətlərinin yaxşılaşdırılması və s. istiqamətlərə dair məsələlərə bir sıra yerli və xarici alimlərin əsərlərində rast gəlmək mümkündür.Respublikamızın görkəmli alimlərindən Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ə.X.Nuriyev, A.F.Musayev, İ.H.Alıyev, A.M.Məhərrəmov,A.A.Şəkərəliyev, İ.A.Kərimli, F.Ə.Qəmbərov, B.X.Ataşov, İ.H.İbrahimov, S.V.Salahov, R.Ə.Balayev, D.Ə.Vəliyev, A.M.Məhərrəmov, Ş.H.Hacıyev, Ə.İ.Bayramov, H.B.Rüstəmbəyov və digər iqtisadçi alimlər öz əsərlərində problemin müxtəlif aspektlərinə geniş yer vermiş, nəzəri və praktiki cəhətdən böyük əhəmiyyətə malik nəticələr əldə etmişlər. Xarici ölkə alimlərindən L.İ. Abalkin, V.A. Boqomolov, İ.O. Boqdanov, N.A.Popov, V.N. Malış, V.V.Kuznetsov, Q.K.Peçaqin, A.Q.Budrin, Q.A. Kononova, N.Q.Pletnyova və digərləri öz əsərlərində beynəlxalq əlaqələr və inteqrasiya problemləri ilə yanaşı, aqrar sahə, aqrar məhsulların xarici bazarlara çıxışına dair müxtəlif məsələləri tədqiq etmişlər.

Lakin aqrar sahənin məhsullarının qlobal məkana çıxış istiqaməti kimi araşdırılması, dünya iqtisadiyyatına inteqrasiyada aqrar sahənin fəaliyyətinin stimullşadırılması, infrastruktur təminatının yaxşılaşdırılması və s. kimi məsələlərə ayrıca tədqiqat işində baxılmamışdır. Bu isə, bir daha seçilmiş tədqiqat mövzusunun aktuallığına dəlalət edir.Tədqiqatın məqsəd və vəzifələrinin müəyyən edilməsinə tam əsas verir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin məqsədi dünya iqtisadiyyatının inkişafı və müasir iqtisadi münasibətlərin tələblərinə uyğun olaraq dünya iqtisadiyyatına inteqrasiyanın nəzəri-metodoloji əsaslarını öyrənmək və inteqrasiya prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasında aqrar sahənin rolunun artırılmasına dair təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün, aşağıdakı vəzifələr qarşıya qoyulmuş və tədqiqat zamanı ardıcıllıqla yerinə yetirilmişdir:

- dünya iqtisadiyyatının xarakterik cəhətlərinin tədqiqi və qlobal məkana inteqrasiyanın elmi-nəzəri əsaslarının öyrənilməsi;
- Azərbaycan Respublikasında aqrar sahənin inkişaf dinamikasının müqayisəli təhlili və qiymətləndirilməsi;
- aqrar sahə məhsullarının dünya bazarına çıxışına dair beynəlxalq təcrübənin araşdırılması;
- aqrar sahə məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətlərinin aydınlaşdırılması;

- aqrar sahə kompleksinin infrastruktur təminatının təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;

- aqrar sahə məhsullarının ixracının stimullaşdırılması istiqamətində təklif və tövsiyələrin işlənib hazırlanması

- Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində aqrar sahənin rolunun artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekti:** Azərbaycan Respublikasının aqrar sahəsidir.

**Tədqiqatın predmetini** isə dünya iqtisadiyyatına inteqrasiya zamanı aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri arasında mövcud olan iqtisadi münasibətlər sistemi, bu subyektlərin təsərrüfat fəaliyyətinin təhlili və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**nı yerli və xarici ölkə alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları və bütün bunların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir. Tədqiqat zamanı sistem yanaşma, induksiya, deduksiya və mühakimə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**nı dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi, aqrar təsərrüfat subyektlərinin fəaliyyətinin təşkili və təkmilləşdirilməsi, o cümlədən nəqliyyat xidmətlərinin səmərəli təşkili ilə əlaqədar qanunlar və digər normativ-hüquqi sənədlər, Azərbaycan Respublikası prezidentinin müvafiq fərman və sərəncamları, əlaqədar dövlət qurumlarının məlumatları və statistik hesabatları, eləcə də müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- dünya iqtisadiyyatına inteqrasiyanın səciyyəvi xüsusiyyətləri tədqiq edilmiş və bu əsasda Azərbaycan Respublikasının aqrar sahəsinin (məhsullarının) qlobal məkana çıxışının elmi-nəzəri əsasları işlənib hazırlanmışdır;

- İnteqrasiya proseslərinin sürətləndirilməsi məntiqi ilə aqrar sahə məhsullarının dünya bazarına çıxışının marketinq modeli təklif edilmişdir;

- Aqrar sahə məhsullarının dünya bazarına çıxışına dair beynəlxalq təcrübə tədqiq olunmuş və müvafiq (Fransa, Yeni Zelandiya və s.) təcrübənin tətbiqi zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır;

- Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi məqsədilə aqrar sahə məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi yolları təklif edilmişdir;

- Aqrar sahənin infrastruktur təminatının təkmilləşdirilməsi yolları təklif edilmişdir;

- Aqrar sahənin ixracının stimullaşdırılması yolları təklif edilmişdir;

- Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində aqrar sahənin rolunun artırılması istiqamətində müvafiq təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilmiş nəticələr, ölkənin dünya iqtisadiyyatına inteqrasiyası, bu istiqamətdə aqrar-sənayenin rolunun artırılması, aqrar-sənaye kompleksinin dinamik inkişafının təmin edilməsi, bu sahədə beynəlxalq təcrübənin tətbiqi və s. istiqamətində irəli sürülmüş təklif və tövsiyələr müvafiq normativ-hüquqi sənədlərin, proqram və təlimatların hazırlanmasında istifadə edilə bilər.

Eyni zamanda, işdə əldə edilmiş nəticə, hazırlanmış təklif və tövsiyələr ayrı-ayrı ali məktəblərdə uyğun ixtisaslar üzrə kadrların hazırlanmasında, müvafiq tədris proqramlarının tərtibində istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi:** Dissertasiya işinin nəticələri və əsas müddəaları, işdə irəli sürülmüş təklif və tövsiyələr "Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və müasir prioritetlər", "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya", "Azərbaycanın qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi" və s. respublika səviyyəli və beynəlxalq konfranslarda məruzə edilmiş və çap olunmuşdur.

Tədqiqat nəticəsində əldə edilən müəyyən nəticə və təkliflər AR Kənd Təsərrüfatı Nazirliyi nəzdində fəaliyyət göstərən Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu tərəfindən istifadəyə qəbul edilmişdir ( 16/37№-li Arayış).

Ümumilikdə tədqiqat işi üzrə, 1 ədədi xaricdə olmaqla, 8 elmi məqalə çap olunmuşdur.

**Dissertasiya işinin həcmi və quruluşu**: Tədqiqat işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 12 cədvəldən və 227 adda ədəbiyyatdan istifadə edilmişdir. İş ümumilikdə 162 kompüter səhifəsi həcmindədir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI:

**GİRİŞ**

**FƏSİL 1: DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYANIN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Qlobal iqtisadiyyatın xarakterik cəhətləri və inkişaf meyilləri

1.3. Milli təsərrüfatların dünya iqtisadiyyatına inteqrasiyasının elmi-nəzəri məsələləri
1.4. Kənd təsərrüfatı məhsulları istehsalının və ixracının nəzəri əsasları
**FƏSİL 2. AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR-SƏNAYE KOMPLEKSİNİN MÜASİR VƏZİYYƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**
2.1. Aqrar sahənin inkişaf dinamikasının müqayisəli təhlili və qiymətləndirilməsi
2.2. Aqrar sahə məhsullarının dünya bazarına çıxışnın sürətləndirilməsinin marketinq metodu
2.3. Aqrar sahə məhsullarının dünya bazarına çıxışına dair beynəlxalq təcrübənin tədqiqi
**FƏSİL 3. AZƏRBAYCANIN DÜNYA IQTISADIYYATINA INTEQRASİYASININ SÜRƏTLƏNDIİRİLMƏSİNDƏ AQRAR-SƏNAYE KOMPLEKSİNİN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ**
3.1. Aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi
3.2. Aqrar sahə məhsullarının ixracının infrastruktur təminatının təkmilləşdirilməsi
3.3. Aqrar sahə məhsullarının ixracının stimullaşdırılması istiqamətləri
**NƏTİCƏ VƏ TƏKLİFLƏR**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Qloballaşma şəraitində texniki-texnoloji və sosial-iqtisadi transformasiyaların təsiri altında aqrar sənaye kompleksinin inkişafı və onun tənzimlənmə sisteminin dəyişməsi arasında qarşılıqlı əlaqə müəyyən edilmiş və əsaslandırılmışdır ki, bu da, Azərbaycanın aqrar-sənaye sektorunun dünya bazarlarına inteqrasiya dərəcəsini qiymətləndirməyə imkan vermişdir.**

Dünya təsərrüfatı uzun illər boyu ayrı-ayrı ölkə və regionların qeyri-bərabər inkişafı, rəqabət mübarizəsinin daim kəskinləşməsi, kapitalın və elmi-texniki potensialın rəqabət mərkəzində cəmlənməsi, əsasən əmtəələrin ixrac edilməsi kimi xarakterik cəhətləri ilə fərqlənmişdir. Hər bir sahədə dəyişikliklərin olduqca sürətli şəkildə cərəyan etdiyi müasir dünya iqtisadiyyatında xarakterik cəhətlər daha güclü və daha qlobaldır.

Reallıq isə ondan ibarətdir ki, elm, texnologiya və informasiyanın

beynəlxalq miqyasda hərəkəti sərbəstdir və qlobal mahiyyət daşıyır. Texnoloji informasiya üzərində mülkiyyət hüququ rəqabət üstünlüyü yaradır. Ona görə də texnologiya və bilik mübadiləsi qlobal iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir. Elmi ədəbiyyata daxil olan yeni iqtisadi mühit, yeni qlobal mühit kimi ifadələrin də əsasında, məhz bu dayanır.

Azərbaycanda xarici iqtisadi əlaqələrin yaradılmasında sənaye sahələrinin inkişafı əsas rol oynayır. Lakin, emal sənayesi üçün xammal olan aqrar məhsulların inkişafına lazımi şəkildə yanaşılmır. Xüsusilə, pambıq, tütün, tərəvəz və meyvə istehsalının xarici istehlak üçün ixtisaslaşması, texnoloji səviyyədə inkişafı və bununla əlaqəli infrastrukturlar xarici standartlar səviyyəsində olması, hələlik tam təmin edilməmişdir. Əlverişli təbii-iqlim, coğrafi şəraiti və iqtisadi potensialı olan ölkəmizdə kənd təsərrüfatı məhsullarının ixrac potensialını artırmaq və xarici bazarlara rəqabət qabiliyyətli və keyfiyyətli məhsullar çıxarmaq üçün aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirmək məqsədəuyğun olardı:

- mövcud daxili ehtiyatlardan səmərəli istifadə edərək kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və yerli istehsalçıların stimullaşdırılması mexanizmini hazırlamaq.
- emal müəssisələrinin yaradılması, yeni texnologiyaların tətbiqi rəqabət qabiliyyətli məhsullar hazırlanması üçün stimullaşdırıcı mexanizmin hazırlanması;
- kənd təsərrüfatı və emal məhsulları istehsalını artırmaqla ixracın artırılması təmin edilməlidir.

Bir çox iqtisadçı alimlər (məsələn prof.S.V.Salahov) qeyd edir ki, "Respublikanın təbii-iqtisadi şəraiti ixrac yönümlü məhsulların çeşidini və həcmini artırmağa imkan yaradır". Qeyd edək ki, xarici bazarlara məhsul çıxarılmasını stimullaşdıran "Azərbaycan Respublikası xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında" 10 yanvar 1994-cü il tarixli və "Azərbaycan Respublikası xarici ticarətin tənzimlənməsi qaydaları haqqında" fərmanlar böyük əhəmiyyətə malik olmuşlar və 15 noyabr 1995 ci il tarixli "İxrac əməliyyatlarının lisenziyalaşdırılması və kvotalaşdırılmasının ləğv olunması" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü il tarixli sərəncamları isə istehsalçılar üçün stimul olmuşdur. Elmi-təcrübi baxımdan kənd təsərrüfatı və emal məhsulları istehsalının və ixracın artırılmasında və stimullaşdırılmasında "Azərbaycan Respublikası regionlarının sosial-

iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 11 fevral 2004-cü il tarixli Fərmanı böyük əhəmiyyətə malikdir.

Tədqiqat göstərir ki, respublikamızda mövcud olan ehtiyatlardan səmərəli istifadə etmək üçün kredit, texnika, yeni texnologiyalar və onları hərəkətə gətirə bilən ixtisaslı mütəxəssilər tələb olunur. Ona görə də dünya ərzaq bazarının konyukturundan asılı olmamaq üçün və yaxud bu asılılığı azaltmaq üçün bütün ehtiyatlardan istifadə etməklə idxal olunan ərzaq məhsullarının ölkənin özündə istehsalı stimullaşdırılmalıdır. Bununla əlaqədar "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2013-2018-ci illər)" göstərilir ki, ölkənin regionlarının sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obtektlərin, turizmin inkişafını təmin etmək qarşıda duran əsas vəzifədir. Ayrı-ayrı sahələrin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarların inkişafı Proqramın əsas məqsədi hesab edilmişdir.

İxrac potensialının yüksəldilməsi və ərzaq bazarının qorunması ölkələr arasında səmərəli əlaqələri şərtləndırən amillərdir. Burada əsas şərt hər bir ölkədə istehsal olunan bütün əmtəələr deyil, ən az xərclə daha çox əldə edilən və ölkədə ucuz başa gələn əmtəələr istehsalı iqtisadi cəhətdən sərfəli hesab edilməlidir. Başqa sözlə, ölkə daxilində ucuz başa gələn məhsullar isə xaricdən gətirilməlidir.

Araşdırmalar göstərir ki, sərbəst bazar iqtisadiyyatının əsas meyarlarından biri ölkəyə cəlb edilən kapital qoyuluşu, texnologiya və informasiya axınının məqsədyönlü şəkildə və beynəlxalq azad rəqabət şəraitlərində stimulaşdırılan əlverişli iqlimin yaradılması və bu yöndə dövlətin apardığı məqsədyönlü siyasətdir. Bu istiqamətdə ölkənin əlverişli şəraitindən istifadə edilməli və həyata keçirilən mexanizmlər daha da təkmilləşdirilməlidir. Ölkədə aqrar istehsalın və ixracın artırılması, iqtisadi əlaqələrin genişləndirilməsi üçün aqrar iqtisadiyyatın iqtisadi təminatının möhkəmlənməsini təmin edən ictimai-siyasi, həm də zəruri iqtisadi potensiallar mövcuddur. Fikrimcə, aqrar sahədə bu istiqamətdə aşağıda qeyd edilən tədbirlərin təmin edilməsi məqsədəuyğun olardı:

- aqrar sahədə ixrac potensialları və onun inkişafı istiqamətlərinin düzgün qiymətləndirilməsi;
- idxalın real tələbat həcminin müəyyən edilməsi;

- idxalı əvəzedici sahələrin inkişaf istiqamətləri və perspektivlərin araşdırılması;
- xarici maliyyə resurslarının aqrar sahənin inkişafına cəlb edilməsi;
- iqtisadi təhlükəsizlik konsepsiyasının işlənməsi və həyata keçirilməsinin reallaşdırılması;
- inteqrasiya mexanizmlərinin hazırlanması və s.

**2. İnteqrasiya proseslərinin sürətləndirilməsi əsasında aqrar sahə məhsullarının dünya bazarına çıxışının marketinq metodu işlənib hazırlanmışdır.**

Ölkəmizin ərzaq (qida) məhsulları üzrə ixrac mənzərəsini əks etdirən 1 saylı cədvəldən göründüyü kimi, ərzaq məhsulları ixracının həcmi 2010-cu ildə 556,6 milyon dollar, 2014-cü ildə 777,8 milyon dollar, 2015-ci ildə isə 731,5 milyon dollar təşkil etmişdir.

Uyğun illərin müqayisəsinə görə, ərzaq məhsullarının idxalı ixracı 2010-cu ildə 276,1 milyon dollar, 2014-cü ildə 80 milyon dollar, 52,3 milyon dollar üstələmişdir. Başqa sözlə desək, idxal-ixrac arasındakı fərq azalaraq, ilbəil müsbət saldoya doğru dəyişsə də, hələlik qida məhsulları bazarı idxaldan asılı vəziyyətdədir. 2015-ci ildə ixrac məhsulları üzrə təzə meyvə (173,0 min ton), tərəvəz (83,3 min ton), bitki yağları (23,5 min ton), marqarin (27,2 min ton) daha çox xüsusi çəkiyə malikdir.

İdxal və ixracın kompleks analizi göstərir ki, eyni adlı məhsulları ölkəmiz həm idxal, həm də ixrac edir. Amma ümumi müqayisədə idxaldan asılılıq müşahidə edilir. Bu baxımdan da, torpaqlardan istifadənin səmərəliləşdirilməsi, məhsuldarlığın artırılması ilə yanaşı, ərazilərin ixtisaslaşdırılması da zəruridir. Ona görə ki, mütləq deyildir ki, ölkə bütün məhsulları istehsal etsin və bu məhsullarla özünü təmin etsin. Təbii ki, iqlim və torpaq şəraitinin imkan verdiyi, daha məhsuldar olduğu məhsulların istehsalı və ixracı, səmərəli və məhsuldar olmayan məhsulların isə idxalı daha məqsədəuyğun hesab edilir. Bu halda, həm məhsul istehsalı artmaqla torpaqlardan istifadə səviyyəsi yüksələr, həm də ölkənin ixrac imkanları, ixrac etdiyi məhsulların həcmi artar.

İqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, kənddə radikal aqrar islahatların həyata keçirilməsi, ənənəvi təsərrüfat, idarəçilik forması olan sovxoz və kolxozların islahı, onlara məxsus torpaq, mal-qara və əmlakın özəlləşdirilməsi, kənd təsərrüfatı istehsalı sahəsində mərkəzi planlaşdırma sistemi və məhsul alışı üzrə dövlət sifarişlərinin ləğv edilməsi, məhsulun alış və satış qiymətlərinin sərbəstləşdirilməsi və s. bu kimi köklü idarəçilik prinsipləri kənd təsərrüfatının sosial-iqtisadi və sahə idarəçilik

strukturuna da ciddi təsir göstərmişdir. Bütün bunlar təsərrüfat kateqoriyaları və kənd təsərrüfatının ayrı-ayrı istiqamətləri üzrə məhsul artımında da hiss edilməkdədir.

*Cədvəl 1*

**Emal ərzaq məhsullarının istehsal dinamikası (min tonla)**

| Məhsulun adı | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2015/1995 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kolbasa | 1,9 | 0,6 | 1,9 | 2,1 | 2,4 | 4 | 6 | 6,6 | 5 | 2,6 d. |
| Kərə yağı | 0,8 | 12,8 | 14,2 | 20,9 | 21,1 | 21,8 | 21,9 | 23,4 | 23,9 | 29,9 d. |
| Pendir və kəsmik | 2,3 | 29,8 | 33,5 | 43,3 | 44,3 | 45,1 | 47,3 | 48 | 48,5 | 21,1 d. |
| Un | 407,8 | 294,6 | 1374,1 | 1320,2 | 1328,1 | 1381,3 | 1438 | 1476 | 1507 | 3,7 d. |
| Yağlılıq dərəcəsi 6-29 faiz olan qaymaq | 1,1 | 1,6 | 1,6 | 4,2 | 4,4 | 4,5 | 4,6 | 4,7 | 5,1 | 4,6 d. |
| Bitki yağları | 11,7 | 10,8 | 64,1 | 88,7 | 80 | 99,8 | 100,2 | 106,9 | 106,7 | 9,1 d. |
| Meyvə-tərəvəz konservləri | 32,8 | 12,3 | 23,2 | 137,1 | 149,6 | 147,3 | 153,3 | 159,1 | 147,9 | 4,5 d. |
| Qənnadı məmulatları | 32,9 | 23 | 42,9 | 43,5 | 45,7 | 46,9 | 47,7 | 50,1 | 55,9 | 169,9 |
| Təbii çay | 1,3 | 1,5 | 7,5 | 10,9 | 11 | 10,7 | 7,5 | 8 | 6,2 | 4,8 d. |
| Fermentləşdirilmiş tütün | 13,5 | 7,8 | 2,6 | 2 | 2,6 | 2 | 2,1 | 2,4 | 1,7 | 12,6 |
| Papiros və siqaretlər, mlrd. ədəd | 1,9 | 2,4 | 5 | 2,2 | 2 | 1,8 | 1 | 2 | 1,9 | 100,0 |
| Makaron məmulatı | 4,9 | 0,4 | 3,5 | 13 | 10,7 | 10,9 | 7,2 | 9,3 | 9,2 | 187,8 |
| Qarışıq yem | 111,6 | 0,4 | 0,1 | 4,8 | 4,7 | 18,9 | 6,5 | 6,5 | 12,8 | 11,5 |
| Şəkər | 0 | 535,6 | 3,6 | 335,5 | 334,7 | 355,7 | 423,1 | 410,6 | 335,6 | 100 |
| Alkoqolsuz içkilər, min dkl | 126 | 4663,7 | 13361 | 19866 | 20978 | 25362 | 26658 | 28269 | 24885 | 197,5 d. |
| Araq, min dkl | 130 | 450,4 | 484,3 | 884,9 | 820,6 | 696,7 | 844,9 | 668 | 770,7 | 5,9 d. |
| Üzüm şərabı, min dkl | 573 | 623,2 | 400,5 | 1162,8 | 752,1 | 1063 | 835,5 | 1003 | 1035 | 180,6 |
| Şampan şərabı, min dkl | 135 | 150,4 | 61,8 | 27,9 | 19,5 | 26,8 | 16,3 | 9,2 | 4,5 | 3,3 |
| Konyak, min dkl | 86 | 386,1 | 17,5 | 81,4 | 112,7 | 87,4 | 132,5 | 134,2 | 3,8 | 4,4 |
| Pivə, min dkl | 223 | 710,8 | 2490,1 | 3771 | 3904,5 | 4757 | 5215 | 5149 | 4197 | 18,8 d. |
| Pambıq iplik | 19,9 | 0,7 | 17,7 | 7,6 | 9,9 | 16,6 | 15,5 | 11,9 | 9,1 | 45,7 |
| Pambıq mahlıcı | 98,5 | 73,9 | 56 | 11,4 | 14,2 | 22,9 | 12,1 | 13,5 | 6,6 | 6,7 |
| İpək xammalı, ton | 0 | 0 | 58,4 | 51,8 | 8,5 | 2,1 | 0 | 17,9 | 7,9 | 100 |

*Mənbə:* Azərbaycanın Kənd Təsərrüfatı 2017, ARDSK. Səh. 99-100 əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Məlum olduğu kimi, aqrar təsərrüfat subyektlərinin marketinq fəaliyyəti müəyyən mühit şəraitində baş verir və həmin mühitin mürəkkəbliyi get-gedə artır. Müəssisələrin fəaliyyət göstərdiyi mühitin mürəkkəbliyi və dinamikliyi artdıqca, onun öyrənilməsinə ehtiyac daha da artır. Belə ki, müəssisənin marketinq mühitini öyrənmədən, onun istehsal-satış fəaliyyətində meydana çıxa biləcək qeyri-müəyyənlikləri minimumlaşdırmaq və yaxud tamamilə aradan götürmək mümkün deyildir. Aqrar müəssisələrin istər mikro, istərsə də makro mühit amilləri müəssisə tərəfindən nəzarət olunmayan amillərdir. Bu amillərin təsiri nəticəsində marketinq mühitində vaxtaşırı dəyişikliklər baş verir və həmin dəyişikliklər sayəsində müəssisələr qarşısında istehsal-satış fəaliyyətinin həyata keçirilməsi baxımından həm yeni imkanlar açıla bilir, həm də təhlükələr meydana çıxır. Müəssisə marketinq mühitində meydana çıxan təhlükələrdən yan keçmək, bazar şanslarından isə səmərəli şəkildə istifadə etmək yolu ilə özünün bazar

mövqelərini qoruya və daha da möhkəmləndirə bilir. Son illər xarici ölkələrin ərzaq məhsulları istehsalçılarının ölkəmizin ərzaq məhsulları bazarının ayrı-ayrı seqmentlərinə müdaxilələri daha da güclənmişdir. Bunun ən mühüm səbəblərindən biri xarici ölkənin ərzaq məhsulları istehsalçılarının öz istehsal-satış fəaliyyətlərində marketinq konsepsiyalarını uğurla tətbiq etmələridir. Bunun üçün onlar, ilk növbədə, əlbəttə, fəaliyyət göstərəcəkləri mühiti hərtərəfli surətdə öyrənir, həmin mühitdə baş verən proseslər haqqında ətraflı informasiyalar əldə edirlər. Xarici ölkələrin istehsalçılarının ölkəmizin ərzaq məhsulları bazarına getdikcə güclənən müdaxilələrinin qarşısını almaqdan və ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təminolunma səviyyəsinin daha da yüksəldilməsinə nail olmaqdan ötrü ərzaq məhsulları istehsal edən müəssisələr fəaliyyət göstərdikləri mühiti sistemli öyrənmək əsasında marketinqin fəndlərindən və metodlarından bacarıqla istifadə etməlidirlər. Aqrar-sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin istehsal-satış fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi makromühit amillərinin də izlənilməsini tələb edir. Müəssisə makromühitdə baş verən dəyişiklikləri ciddi şəkildə izləməklə öz fəaliyyətini həmin mühitin tələblərinə uyğunlaşdıra və tənzimləyə bilir. Makromühitin ən mühüm amillərindən biri demoqrafik amil hesab olunur. Demoqrafik amilin təhlili və öyrənilməsi zamanı əhalinin tərkibinin, miqrasiyasının və sayının dəyişməsinə xüsusi diqqət yetirilir. Belə dəyişikliklər nəticəsində ərzaq məhsulları bazarının real və potensial tutumunda dəyişikliklər baş verir, həmçinin əhalinin ayrı-ayrı ərzaq məhsullarına qarşı irəli sürdükləri tələblər müəyyən qədər dəyişikliklərə uğrayır. 2005-ci illə müqayisədə 2010-cu ildə ölkəmizin əhalisinin 8553,0 min nəfərdən 8997,6 min nəfərə qədər və yaxud 5,2% artımı ərzaq məhsulları bazarının potensial tutumunun da natural ifadədə təqribən bir o qədər artımına gətirib çıxarmışdır. Göstərilən amillərin aqrar-sənayedə istehsal-satış fəaliyyəti ilə məşğul olan müəssisələr tərəfindən nəzərə alınması onların fəaliyyətlərinin səmərəliyinin yüksəldilməsi və bazara uyğunlaşdırılması baxımından tədbirlər işləyib hazırlamağa imkan verir. Makromühitin ən mühüm amillərindən hesab olunan iqtisadi amil aqrar-sənaye müəssisələrinin istehsal-satış fəaliyyətinin dayanıqlığına birbaşa təsir göstərir. Ona görə də bu mühitdə baş verən dəyişikliklər müəssisələr tərəfindən müntəzəm olaraq izlənilməlidir. Makromühitin iqtisadi amili öyrənilən zaman qiymətlərin səviyyəsinə, əhali təbəqələri arasında gəlirlərin bölüşdürülməsinə, əhalinin istehlak xərclərinin strukturuna, kreditgötürmə imkanlarına və onların

banklardakı əmanətlərinin məbləğinin dəyişməsinə xüsusi diqqət yetirilir və sadalanan amillər nəzərə alınmaqla, bütövlükdə iqtisadi mühit təhlil olunur.

**3. İqtisadi mühiti formalaşdıran amillərin əhali təbəqələrinin alıcılıq qabiliyyətini şərtləndirməsi və aqrar-sənaye müəssisələrinin marketinq fəaliyyətinin həyata keçirilməsinin səmərəliyi arasında ciddi əlaqənin olması müəyyən edilmişdir.**

İqtisadi mühiti formalaşdıran amillər əhali təbəqələrinin alıcılıq qabiliyyətini şərtləndirir və aqrar-sənaye müəssisələrinin marketinq fəaliyyətinin həyata keçirilməsinə və səmərəliyinə ciddi surətdə təsir göstərir.

Məlum olduğu kimi, bazar münasibətləri şəraitində aqrar sektorda təsərrüfat subyektlərinin fəaliyyətinin davamlığına həmin müəssisələrin kreditgötürmə imkanları birbaşa təsir göstərir. Bu sahədə ölkəmizdə məqsədyönlü işlər görülür və həmin işlər indi də davam etdirilməkdədir. Aqrar sahədə fəaliyyət göstərən iş adamlarının güzəştli şərtlərlə kreditləşdirilməsini həyata keçirən strukturların fəaliyyəti və onların şəbəkəsi genişləndirilir və sözügedən müəssisələrin marketinq fəaliyyətlərinin səmərəliyinin yüksəldilməsi üçün onlara əlavə stimullar verilir. Məsələn, təkcə 2014-cü ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə kənd təsərrüfatı məhsulları emalçılarına və ərzaq məhsulları istehsalçılarına yüz milyonlarla manat məbləğində kredit verilmişdir. Kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan strukturlar və ərzaq məhsulları istehsalçıları tərəfindən götürülən kredit resurslarının tərkibində meyvə şirələrinin, balıq konservlərinin, meyvə-tərəvəz konservlərinin və s. kimi ərzaq məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin xüsusi çəkisi kifayət qədər yüksəkdir. 2017-ci il sentyabr ayının 1-nə olan məlumata görə, cəmi investisiyaların 6,3%-i kənd təsərrüfatı məhsulları istehsalına və həmin məhsulların emalına verilmişdir.

Aydındır ki, ərzaq təminatı və təhlükəsizliyində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı həm də aqrar-sənaye müəssisələrinin xammal bazası rolunda çıxış edir. Aqrar-sənaye müəssisələri öz fəaliyyətlərinin dayanıqlığını və səmərəliliyini təmin etməkdən ötrü ölkəmizdə təbii resurslardan istifadə məsələlərinin tənzimlənməsi məqsədilə tətbiq olunan qanunları və normativ-hüquqi xarakterli sənədləri hərtərəfli təhlil etməli və öz fəaliyyətlərini qanunçuluğun tələblərinə uyğunlaşdırmalıdırlar.

Cədvəl 2

**2001–2016-cı illərdə Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ixracı (min ABŞ dolları ilə)**

| Məhsul | 2001 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2015/ 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Meyvə | 11982 | 146432 | 112484 | 152965 | 207986 | 173508 | 192165 | 220247 | 150,4 |
| Tərəvəz | 856 | 26224 | 42345 | 78307 | 55969 | 77264 | 98919 | 91681 | 3,5 d. |
| Meyvə-tərəvəz emal məhsulları | 2123 | 16773 | 21518 | 21366 | 18694 | 21965 | 17143 | 10857 | 64,7 |
| Heyvan və bitki mənşəli yağlar | 2957 | 68418 | 188255 | 173757 | 221766 | 227884 | 190335 | 153335 | 2,2 d. |
| Şəkər və şəkər məhsulları | 0 | 91 | 146452 | 199185 | 214911 | 243840 | 221379 | 212207 | 233,2d |
| Şokolad məhsulları | 0 | 398 | 3157 | 7924 | 11942 | 16268 | 11868 | 7648 | 19,2 d. |
| Çay | 3142 | 14097 | 32957 | 32211 | 37223 | 43906 | 30804 | 18959 | 134,5 |
| Spirtli və spirtsiz içkilər | 3403 | 9401 | 15142 | 15727 | 21041 | 30947 | 31875 | 25829 | 2,7 d. |
| Pambıq | 15122 | 43974 | 15892 | 20612 | 22302 | 30230 | 14324 | 19308 | 43,9 |
| Gön-dəri | 1566 | 2134 | 11664 | 10774 | 13932 | 16978 | 23868 | 12128 | 5,7 d. |
| Tütün | 11834 | 5395 | 5894 | 9307 | 7913 | 10757 | 12415 | 7431 | 137,8 |
| Digər | 19457 | 40375 | 27098 | 28676 | 37183 | 34999 | 36171 | 23000 | 57,0 |
| Cəmi | 72442,0 | 373712 | 622858 | 750811 | 870862 | 928546 | 881266 | 802634 | 2,2 d. |

*Mənbə:* Azərbaycanın Kənd Təsərrüfatı 2017, ARDSK. Səh.137-139, 141

Cədvəl 2-dən göründüyü kimi, 2015-cı ildə 2005-ci ilə nisbətən meyvə ixracı 1,5 dəfə, tərəvəz 3,5 dəfə artmış, meyvə-tərəvəz emalı məhsulları isə azalmışdır.

Aqrar müəssisələrin marketinq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etmədən, demək olar ki, çox çətindir. Ona görə də bu sahədə istehsal-satış fəaliyyəti ilə məşğul olan müəssisələr elmi-texniki tərəqqinin nailiyyətlərini fəal surətdə izləməli və onları marketinq fəaliyyətində tətbiq etməyə çalışmalıdırlar. Lakin demək lazımdır ki, Azərbaycanın aqrar-sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin çoxunda elmi texniki tərəqqinin nailiyyətlərindən istifadə səviyyəsi çox da yüksək deyil. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrin əksəriyyətində elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi ixracı stimullaşdırılır və bu məqsədlə hərtərəflidüşünülmüş elmi texniki siyasət işlənib hazırlanır və həyata keçirilir. Sözügedən ölkələrdə elmi-texniki tərəqqinin maliyyələşdirilməsi məqsədilə dövlət büdcəsindən lazımi miqdarda vəsait ayrılır. Aparılan tədqiqatlar göstərir ki, vəsaitlər bu

və ya digər istehsal sahəsinə ayrılan subsidiyaların daxilində 4-5% ətrafında tərəddüd edir. Gələcəkdə ölkəmizin aqrar sektorunda rəqabət qabiliyyətliyinin təmin olunması həmin müəssisələrin elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi məqsədilə ayırdıqları vəsaitlərin məbləğindən, həmçinin bu istiqamətdə dövlət tərəfindən ayrılan subsidiyalardan bilavasitə asılı olacaqdır. Ölkəmizdən fərqli olaraq, bazar münasibətlərinin inkişaf etdiyi xarici ölkələrin ərzaq məhsulları bazarında istehlakçı tərəfindən yeni məhsul kimi qəbul edilən hər gün onlarca yeni məhsul istehsal olunub bazara təklif edilir. Məsələn, aparılan araşdırmalar göstərir ki, Fransanın ərzaq bazarında gün ərzində istehlakçılara 100 ədəd yeni məhsul təklif olunur. Bu, il ərzində təqribən 37 min yeni məhsul deməkdir. Bu faktlar göstərir ki, gələcəkdə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz fəaliyyətlərində yenilikləri tətbiq etmədən xarici ölkələrdən ərzaq məhsulları bazarımıza daxil olan istehsalçılarla rəqabət aparmaları çox çətin olacaqdır.

Aqrar müəssisələrin marketinq fəaliyyətinə təsir göstərən makromühit amillərindən biri siyasi-hüquqi mühit hesab olunur. Marketinqin siyasi mühitində baş verən hadisələr ərzaq sənayesi müəssisələrində qəbul edilən marketinq qərarlarına çox güclü təsir göstərir. Siyasi-hüquqi mühitdə baş verən dəyişikliklər marketinq fəaliyyətinin səmərəliyinin yüksəldilməsi üçün yeni-yeni imkanlar yarada, eyni zamanda, həmin fəaliyyəti məhdudlaşdıra da bilər. Ölkəmizin aqrar sektorunda marketinq fəaliyyətinin tənzimlənməsi məqsədilə çoxsaylı qanunlar və normativ-hüquqi xarakterli sənədlər işlənib hazırlanmışdır. Bu sahədə tətbiq olunan qanunlar və normativ-hüquqi xarakterli sənədlər daha da təkmilləşdirilir və müəssisələrin marketinq fəaliyyətinin həyata keçirilməsi üçün onlara yeni-yeni imkanlar yaradılır.

İndiki şəraitdə ölkəmizin ərzaq sənayesində fəaliyyət göstərən müəssisələrin ekoloji təmiz ərzaq məhsulları istehsalına üstünlük vermələri və həmin məhsullarla beynəlxalq bazarlara çıxmaları onların istehsal-satış fəaliyyətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsinə gətirib çıxara bilər. Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üçün əlverişli təbii-iqlim şəraiti olsa da, müəssisələrin həmin məhsulların marketinqi üzrə kifayət qədər təcrübələrinin olmaması onların beynəlxalq bazarlara çıxışını əngəlləyən amilə çevrilir. Müəssisələr marketinq konsepsiyalarını mənimsəməklə, marketinq fəndlərindən və metodlarından bacarıqla istifadə etməklə, beynəlxalq bazarlara çıxa və istehsal-satış

fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi üçün əlverişli satış bazarlarına malik ola bilərlər.

Son illər kənd təsərrüfatı məhsullarının qiymətlərinin müəyyən qədər yüksəlişi müşahidə olunur və kənd təsərrüfatı məhsulları istehsalçılarının satdıqları məhsulların qiymət artımı aqrar-sənaye müəssisələrində istehsal olunan məhsulların qiymətinin artımına gətirib çıxarır. Ayrı-ayrı məhsullar üzrə qiymət artımları emal müəssisələrində də xammal və materiallara çəkilən xərclərin müəyyən qədər artımına gətirib çıxarmışdır. Lakin fikrimizcə, aqrar-sənaye müəssisələrində xammal və materiallara çəkilən xərclərin artımı daha çox sözügedən müəssisələr tərəfindən idxal edilən xammalın və materialların qiymətlərinin yüksək olması ilə əlaqədar olmuşdur.

Müəssisənin əldə etdiyi mənfəətin məbləği yetərincə olmadıqda, həmin müəssisə maliyyə-kredit dairələrinə müraciət etməklə maliyyə resurslarının çatışmazlığını aradan götürə və istehsal-satış prosesini davam etdirə bilir. Bu baxımdan maliyyə-kredit dairələri marketinqin mikromühitinin vacib elementlərindən biri hesab olunur.

**4. İnkişaf etmiş ölkələrin aqrar-sənaye komplekslərinin dünya bazarına inteqrasiya təcrübəsi əsasında, Azərbaycanda dünya bazarlarına istiqamətlənmiş aqrar sənayenin yaradılması zərurəti əsaslandırılmış və bu istiqamətdə konkret tədbirlər təklif olunmuşdur.**

Aqrar sahədə islahatların aparılması, bazar münasibətləri əsasında aqrar sahənin mənafeyinə uyğun kreditlərin və xarici kapitalın cəlb olunması böyük əhəmiyyətə malikdir. Azərbaycanın kənd təsərrüfatı xarici investisiyaların cəlb olunması baxımından əlverişli sahədir və bunun üçün əlverişli iqtisadi şərait mövcuddur.

Qeyd etmək lazımdır ki, ölkəmizdə məhsulların emalı, daşınması, saxlanılması və aqrar sektorun sənayeləşdirilməsi məsələsi demək olar ki, çox aşağı səviyyədədir. Odur ki, nəinki kənd təsərrüfatı məhsullarının toplanması, hətta saxlanılması, daşınması zamanı külli miqdarda itkiyə yol verilir. Eyni zamanda, məhsulun emalı, satışı, daşınması, saxlanması sahəsində çox az işçi qüvvəsi çalışır. Lakin xarici ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində işləyənlərlə müqayisədə, Azərbaycan əhalisinin bu sahədə bir neçə dəfə çox hissəsi çalışır.

Məlum olduğu kimi, regionlarda keyfiyyətli məhsul bolluğunun yaradılmasında, regionun beynəlxalq iqtisadi əlaqələrdə çevik bir obyektə çevrilməsində, rəqabətə davamlı istehsal sahələrinin inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında sahibkarlıq əhəmiyyətli dərəcədə

həlledici amilə çevrilməkdədir və çevrilməlidir də. Beynəlxalq iqtisadi əlaqələr də respublikanın ayrı-ayrı regionları üzrə optimal səviyyədə inkişaf edərsə bu müəyyən nəticə əldə etmək mümkündür.

Xarici təcrübə ilə tanışlıq göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin hamısında kooperasiya və istehsalın inteqrasiyası prosesləri gedir. Bu isə onunla bağlıdır ki, müasir biznesin aparılması kapitalın daha güclü olan əllərdə toplanması ilə bağlıdır. Bu isə istehsalın bütün faktorlarının - əmək, kapital və yeni texnologiyaların tətbiqinin daha səmərəli istifadəsinin təşkilinə imkan yaradır. Belə ki, ABŞ-da effektli mühafizə preparatları, kimyalaşma, toxumluq məhsulları, damazlıq mal-qara almaqla müasir texnologiyaya uyğunlaşa bilməyən kiçik fermaların sayının azalması kifayət qədər yüksəkdir. Azərbaycanın xarici ticarət əlaqələrinin yaradılmasında sənaye sahələri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi əhəmiyyət kəsb edir. Pambıq, tərəvəz və meyvəçilik məhsullarının xarici istehlak üçün ixtisaslaşması və bu sahələrin müasir səviyyədə məqsədyönlü intensivləşməsinin, bu sahəyə qulluq edən və onunla əlaqədar infrastruktur gələcək inkişafının, onların xarici standartlar səviyyəsinə qaldırılmasının böyük əhəmiyyəti vardır.

Araşdırmalar göstərir ki, respublikamızda idxalın tərkibində əsas yeri istehlak məhsulları tutur. Bu növ məhsulların içərisində xüsusi çəkiyə malik olan yeyinti məhsullarının idxalını məhdudlaşdırmaqla idxalın strukturunu optimallaşdırmaq üçün gələcək dövrdə kənd təsərrüfatı bitkilərinin yüksək məhsuldarlığa malik sortlarının toxumlarının, kənd təsərrüfatı məhsullarının saxlanılması və emalı şəraitinin yaxılaşdırılması üçün avadanlığın, eləcə də təsərrüfatların təchiz olunması və inkişafı üçün yüksək səmərəli texnikanın alınmasına nail olmaq lazımdır.

Maşın və avadanlıq idxalında, perspektiv dövrdə sənayenin hasiledici və emaledici sahələri üçün maşın, nəqliyyat vasitələri və texnoloji avadanlığın hazır növlərinin alınmasına nisbətən, daxili və dünya bazarlarında məhsullarına böyük tələbat olan perspektiv istehsalların təşkili və genişləndirilməsi üçün kompleks texnoloji avadanlığın və lisenziyaların idxalına daha çox üstünlük vermək lazımdır. İdxalın səmərəliləşdirilməsi üçün respublikanın iqtisadiyyatında istehlak olunan və idxal qiymətlərinə nisbətən daha az məsrəflərlə istehsal oluna bilən material və yarımfabrikatların yerli istehsalının təşkil edilməsi daha məqsədəuyğun hesab olunur.

Azərbaycanın xarici ticarətinin başlıca vəzifəsi dünya bazarlarında əsasən xammal və materiallarla tutduğu mövqeləri tədricən rəqabət qabiliyyətli hazır məhsullarla əvəz etmək, istehsal aparatını texniki cəhətdən

yenidən qurmaq yolu ilə ixrac potensialını artırmaq və bu əsasda xarici bazarda mövqeləri möhkəmləndirməkdən ibarət olacaqdır. İqtisadiyyatın ixrac potensialının artırılmasının başlıca şərti isə respublika sənayesində məhsul istehsalının keyfiyyətini və məsrəflərini dünya bazarında rəqabətin tələblərinə və şərtlərinə uyğunlaşdırmaqdan ibarətdir. Bu məqsədlə məhsul istehsalını və keyfiyyətini dünya standartlarına yaxınlaşdırmaq lazımdır. Beynəlxalq texniki səviyyəyə uyğun olan və dünya bazarında yüksək artım potensialına malik olan iqtisadiyyat sahələrinin üstün inkişafı və genişlənməsi üçün şərait yaradılmalıdır.

Əgər xarici sərmayəçilərin iştirakı ilə yerli emal sənayesi müəssisələrinin nəzdində qapalı və açıq tipli səhmdar cəmiyyətlərinin yaradılmasında qeydiyyatdan keçmə mərhələsi iştirakçıların sərbəstliyi şəraitində həyata keçirilərsə, bu, vergi və gömrük siyasətində respublikanın mənafelərinin tam göslənilməsi kimi qəbul edilməlidir. Digər bir tərəfdən kənd təsərrüfatı istehsalı əl əməyinin üstünlüyü ilə həyata keçirildiyindən dəyişkən təbii iqlim və digər xarici amillərin müdaxiləsi ilə yüksək riskə malik olan şəraitdə həyata keçirildiyindən xarici sərmayədarların az maraqlı olduğu sahədir. Bu da ki, ərzaq sənayesi üçün, vacib xammal təminatı üçün dövlət mənafeyi məsələsi olduğundan, dövlətin xüsusi qayğısı və subsidiyası şəraitində həyata keçirilməlidir.

**5. Aqrar sahənin ixracının stimullaşdırılması yolları təklif edilmiş, ixrac yönümlü aqrar sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın aqrar-sənaye kompleksinin infrastruktur təminatının təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür.**

Aqrar-sənayenin inkişafı həm ərzaq təminatı, həm də regional inkişaf baxımından çox vacib və zəruridir. Bunun ən mühüm istiqamətlərindən biri, bu sahədə əldə edilən məhsulların xarici bazarlarda səmərəli satışını təmin etməkdir. Təbii ki, istər daxili, istərsə də xarici bazara çıxş üçün isə məhsulun müasir tələblərə cavab verməsi, rəqabət mübarizəsinə davam gətirməsi zəruridir.

Aqrar ixrac məhsullarının beynəlxalq bazarlarda rəqabətqabiliyyətliliyinin təmin edilməsi, daha doğrusu, həmin məhsulların qiymət rəqabətinə davam gətirməsi baxımından kənd təsərrüfatı istehsalçılarının xərclərinə kömək siyasətinin həyata keçirilməsi də vacib rola malikdir. Toxumçuluq sahəsində subsidiyalar verilməsi ilə yanaşı, mineral gübrələrin və zərərvericilərə qarşı mübarizə vasitələrinin, ayrı-ayrı texnika növlərinin

alınması, enerji və suvarma xərclərinin, habelə, tikinti işlərinin yerinə yetirilməsinə dövlət tərəfindən köməklik göstərilməsini nəzərdə tutur.

Kənd təsərrüfatı istehsalçılarının xərclərinə kömək tədbirlərinin mərhələlərlə, dövlətin maliyyə imkanlarının genişlənməsi miqyaslarına müvafiq qaydada həmçinin prioritet istiqamətlərin düzgün müəyyən edilməsi əsasında həyata keçirilməsi məqsədəuyğundur.

Emal edilməmiş halda ixrac olunan kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin təmin edilməsi sahəsində göstərilən istiqamətdə həll edilməli olan əsas problem həmin məhsulların qablaşdırılması və saxlanılmasının beynəlxalq bazarların çağdaş tələblərinə uyğun həyata keçirilməsidir.

Müasir şəraitdə Azərbaycan Respublikasından emal eilmiş halda ixrac edilən aqrar-sənaye məhsullarının əhəmiyyətli hissəsi keyfiyyət göstəricilərinə görə xarici bazarlarda rəqabət mübarizəsinə davam gətirə bilmirlər. Keyfiyyət parametrləri baxımından rəqabətqabiliyyətliliyinin təmin edilməsinin əsas amili emal sferasında mütərəqqi texnologiyaların tətbiq edilməməsidir. Respublikanın ASK məhsullarına olan tələbatının etibarlı dərəcədə ödənilməsi üçün kənd təsərrüfatı ilə kompleksə daxil olan digər sahələrin əlaqələrinin inkişaf etdirilməsinin və təkmilləşdirilməsinin əhəmiyyəti böyükdür.

Müasir texnologiyaların tətbiq edilməsi, müvafiq sahələrdə məhsulların beynəlxalq bazarların tələblərinə uyğun hazırlanması və onların ixracının genişləndirilməsinə xidmət etməlidir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, hələlik Azərbaycan Respublikasının aqrar-sənaye kompleks sistemində ixrac yönümlü məhsulların keyfiyyət göstəricilərinə görə xarici bazarlarda rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün həll edilməli olan məsələlər qalmaqdadır.

Burada, ilk növbədə, ölkədə emal üçün istehsal olunan xammalın keyfiyyətinin yüksəldilməsi nəzərə alınmalıdır. Bəzi sahələrdə xammalın keyfiyyət parametrləri son məhsulun müasir tələblərə uyğun istehlak xüsusiyyətlərinin təmin edilməsi tələblərinə tam cavab vermir. Məhz, bu baxımdan da, müasir emal sənayesinin tələblərini nəzərə almaqla, ölkədə istehsal olunan kənd təsərrüfatı xammalının keyfiyyət göstəricilərinin yaxşılaşdırılıması çox vacibdir.

Dünya təcrübəsinə əsaslanaraq, bu məsələlərin həllində emal müəssisələri fəal rol oynamalıdırlar. İlk növbədə, müasir aqrar-sənaye sistemlərində kənd təsərrüfatı xammalına əsas tələbləri, son məhsulun istehlakı tələbatlarına maksimum uyğunluğunu təmin etmək vəzifələri əsas

götürülməklə, emalçı vəsilə tərəfindən müəyyən edilir. Digər tərəfdən, məhz emal funksiyalarını həyata keçirən vəsilələr kənd təsərrüfatı xammalının zəruri keyfiyyət parametrlərinə malik olan istehsalın təmin edilməsi üçün müvafiq imkanlara sahib olurlar.

İqtisadi qloballaşdırma şəraitində yüksək keyfiyyətli xammalın idxalı, onun istehsalının ölkə daxilində təşkilinə nisbətən emalçı müəssisələr üçün daha əlverişli olur. Analoji hallarda, ölkənin sosial-iqtisadi inkişaf mənafelərinin gözlənilməsini təmin etmək məqsədilə müvafiq kənd təsərrüfatı xammalı istehsalçılarına yönələn himayədarlıq tədbirlərinin tətbiqi də məqsədəuyğun olardı.

Aqrar sahənin inkişafına güzəştli kreditlər və subsidiyalar verilməsi mexanizmi işlənib hazırlanmalı və tətbiq edilməlidir. İxrac yönümlü məhsulların istehsalı üçün sifarişlər, tələb olunan qisamüddətli kreditlər rüblər üzrə deyil, illik tələbata görə verilməli, uzun və qısamüddətli kreditlərə görə ödənilən faizlər tərəflərin razılığı ilə müəyyənləşdirilməli, həmçinin kreditlərin ödənilməsində manatın alıcılıq qabiliyyətində baş verən dəyişiklik hər iki tərəfdən – bank və istehsalçı tərəfindən eyni məsuliyyətlə nəzərə alınması iqtisadi cəhətdən əhəmiyyətli olardı.

Aqrar sektorda istehsalı stimullaşdırmaq məqsədilə müəyyən məhsulların istehsalçılardan səmərəli (yəni maya dəyərindən yuxarı) qiymətlərlə alınması, istehsal prosesinin daxili bazarın və emal müəssisələrinin sifarişi əsasında təşkili məqsədəuyğun olardı.

Bazar münasibətləri şəraitində xarici iqtisadi əlaqələrin səmərəli inkişaf etdirilməsi mexanizmləri, aqrar sahənin və ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması yolları aşağıdakılardır:

- Bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsulları istehsalı, ixracı və stimullaşdırılması sahəsində qabaqcıl təcrübənin öyrənilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalı və ixracı potensiallarının formalaşdırılmasına təsir edən amillərin sistemləşdirilməsi;
- kənd təsərrüfatında istehsalın stimullaşdırılması və xarici ticarət əlaqələrini şərtləndirən amillərin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalı və ixracı potensiallarından istifadənin müasir vəziyyətini təhlil etmək və onlardan səmərəli istifadə yollarının aşkara çıxarılması;
- ölkədə ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalını təhlil etmək, istehsalı ləngidən amillərin aşkara çıxarılması və inkişafı meyllərinin müəyyənləşdirilməsi;bazar münasibətlərində ölkənin aqrar

bazarının və onunla bağlı olan xarici ticarət əlaqələrinin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

- kənd təsərrüfatında xarici ticarət əlaqələrinin hazırki vəziyyətini təhlil etmək və inkişaf meyllərinin müəyyənləşdirilməsi;kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının stimullaşdırılması istiqamətlərinin əsaslandırılması, aqrar sahədə məhsul istehsalının artırılmasına dair təkliflərin hazırlanması;

- kənd təsərrüfatı məhsullarının ixracı infrastrukturunun formalaşdırılmasına və rəqabət qabiliyyətli məhsullar istehsalının artırılması yollarına dair elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması;

- regionlarda aqrar-sənaye müəssisələri yaratmaqla, aqrar məhsulların son istehlak məhsulu kimi satışının təmin edilməsi;

- aqrar məhsul ixracının stimullaşdırılmasında beynəlxalq nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan səmərəli istifadə və s.

**Tədqiqat nəticəsində, aşağıdakı təklif və tövsiyələr irəli sürülmüşdür:**

Ölkəmizdə aqrar istehsalın sürətləndirilməsi və ixracın artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- məlumdur ki, qlobal məkanda rəqabət mübarizəsi daha da kəskinləşir və rəqabətə davamlılıq dünya bazarına çıxışın zəruri şərti kimi qəbul edilir. Ona görə də, aqrar sahədə məhsul istehsalı və emalının israc potensiallarının artırılması üçün məhsulların rəqabətliliyinin yüksəldilməsi zəruridir. Eyni zamanda, rəqabət qabiliyyətinin yüksəldilməsi həm məhsulların istehsalı və emalı, həm də qablaşdırılması mərhələlərini eləcə də infrastrukturunu əhatə etməlidir;

- Ölkənin əsas regionları zəngin aqrar istehsal potensialına malikdir. Ona görə də regionlarda rəqabət qabiliyyətinin yüksəldilməsi üçün istehsal potensiallarından daha səmərəli istifadə olunmasının yeni mexanizmlərinin tapılması, mövcud potensialdan tam və səmərəli istifadə olunması məqsədilə müvafiq stimullaşdırıcı addımların atılması zəruridir;

- Aqrar sahədə müasir elmi-texniki yeniliklərin və mütərəqqi texnologiyaların geniş tətbiq edilməsi rəqabət qabiliyyətlilik və dünya bazarına çıxış üçün çox vacibdir. Ona görə də, istehsal və emal proseslərinin təkmilləşdirilməsi məqsədəuyğun olardı;

- Beynəlxalq ticarət əlaqələrinin yaradılması və gələcək inkişaf istiqamətlərini nəzərə alaraq, aqrar sahədə istehsalı zərərlə başa gələn və yaxud minimal rentabelli istehsal sahələrinin istehsal dövriyyəsindən çıxa-

rılaraq,onların daha gəlirli və xarici ticarət əlaqələrinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edən sahələrlə əvəz edilməsi məqsədəuyğun olardı;

- torpaq, su resurslarından səmərəli və qənaətlə istifadə olunaraq aqrar bölmə istehsalının artırılması, eləcə də aqrar-sənaye kompleksinin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün kənd təsərrüfatına yararlı torpaq sahələrinin başqa məqsədlər üçün istifadə olunmasının, torpaqların bütün növ eroziyaya uğraması, şoranlaşmaya məruz qalmasının qarşısının alınması üçün bu sahədə dünya təcrübəsindən və texnologiyalarından hərtərəfli istifadə olunmasını, bitkilərin suvarma texnologiyalarının səmərələşdirilərək süni yağış yağdırma metoduna keçirilməsi, suya qənaət edən və şoranlaşmaya şərait yaratmayan texnologiyaların tətbiq edilməsi, ətraf mühitin sağlamlaşdırılması istiqmətində tədbirlər sisteminin tətbiq edilməsi kimi problemlərin həlli zəruridir;

- müəyyənləşdirilmişdir ki, aqrar sahənin səmərəli fəaliyyəti bu sahənin normal fəaliyyəti üçün zəruri olan infrastruktur blokunun bazar iqtisadiyyatı tələbləri əsasında yenidən qurulmasıdır.

Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, ölkəmizdə aqrar istehsalın və ixracın artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar:

- aqrar sahədə məhsul istehsalı və emalının israc potensiallarının artırılması üçün məhsulların rəqabətliliyinin yüksəldilməsi;
- regionlarda rəqabət qabiliyyətinin yüksəldilməsi üçün istehsal potensiallarından səmərəli istifadə olunmasının yeni mexanizmlərinin, xüsusən stimullaşdırmanın ön plana çəkilməsi;
- bu sahədə mövcud olan elmi-texniki yeniliklərin və mütərəqqi texnologiyaların istehsala tətbiq edilməsinin genişləndirilməsini;
- məhsulların keyfiyyətinin yüksəldilməsi üçün seleksiya işlərinin yenidən qurulmasını, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsini, yeni toxum sortlarının və cins malqaranın yetişdirilməsi işlərinin təşkilini;
- aqrar sahədə xidmət işlərinin, xüsusilə marketinq, informasiya, reklam, aqroservis, aqrolizinq, elmi tədqiqat, qabaqcılların iş təcrübələrinin öyrənilməsi xidmətlərinin inkişafının ön plana çəkilməsini;
- aqrar sahədə beynəlxalq ticarət əlaqələrinin yaradılması və gələcək inkişaf istiqamətlərini nəzərə alaraq respublika kənd təsərrüfatında istehsalı zərərlə başa gələn və yaxud minimal rentabelli istehsal sahələrinin istehsal dövriyyəsindən çıxarılaraq, onun daha gəlirli və xarici ticarət əlaqələrinin

genişləndirilməsində mühüm əhəmiyyət kəsb edən sahələrlə əvəz edilməsini təklif edirik.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Tağızadə L.F. Qlobal iqtisadiyyatın xarakterik cəhətləri və inkişaf meylləri. AKU, "Kooperasiya" jurnalı, Bakı: 2015, №4, səh. 48-54.
2. Tağızadə L.F. Dünya iqtisadiyyatına inteqrasiyanın nəzəri əsasları və başlıca istiqamətləri. AMEA İqtisadiyyat İnstitutu, "Elmi əsərlər", Bakı: 2015, №5, səh.213-218.
3. Тагизаде Л.Ф. Ускорение выхода аграрной продукции на внешний рынок в условиях глобализации. «Экономика и предпринимательство», Москва: 2015, № 10, стр. 1067-1070.
4. Tağızadə L.F. Qloballaşma şəraitində aqrar sektorun dayaniqli inkişafina təsir edən amillər. ADAU, "Aqrar elmin və təhsilin innovativ inkişafı: dünya təcrübəsi və müasir prioritetlər" mövzusunda Beynəlxalq Konfransın materialları, Gəncə: 2015, III cild, səh. 423-428.
5. Tağızadə L.F. Rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı məsələləri. AKU, "Kooperasiya" jurnalı, Bakı: 2016, №3(42), səh. 99-103.
6. Tağızadə L.F. Aqrar sənaye məhsullarının ixracının stimullaşdırılması yolları. AMEA İqtisadiyyat İnstitutu, "Elmi əsərlər", Bakı: 2016, №3, səh. 82-87.
7. Tağızadə L.F. Aqrar sənayenin dünya bazarına inteqrasiyasında beynəlxalq nəqliyyat dəhlizlərinin rolu. AMEA İqtisadiyyat İnstitutu, "Xəbərlər", Bakı: 2016, №4, səh. 91-95.

**Лейла Фархад кызы Тагизаде**

## ПУТИ УСКОРЕНИЯ ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В МИРОВУЮ ЭКОНОМИКУ
### (на примере аграрной промышленности)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность диссертационного исследования, рассмотрена степень изученности проблемы, выражены цель и задачи, выявлены научная новизна и практическая значимость исследования.

Первая глава диссертационного исследования называется «Теоретико-методологические основы интеграции в мировую экономику». Здесь, выявлены характерные особенности глобальной экономики и тенденции ее развития, теоретико-методологические вопросы интеграции национальной хозяйственной системы в мировую экономику, теоретические основы производства и экспорта продукции сельского хозяйства.

Вторая глава диссертации называется «Сравнительный анализ и оценка современного состояния аграрно-промышленного комплекса в Азербайджанской Республике». В этой главе проведен сравнительный анализ и оценка динамики развития аграрной сферы, исследован маркетинговый метод ускорения выхода продукции аграрной сферы на мировые рынки, изучен мировой опыт по экспорту сельскохозяйственной продукции.

Третья глава называется «Пути повышения роли аграрно-промышленного комплекса в ускорении интеграции Азербайджана в мировую экономику». В этой главе изучены вопросы повышения конкурентоспособности аграрной сферы, совершенствования инфраструктурного обеспечения экспорта продукции аграрной сферы.

В заключительной части диссертации обобщены выводы, сделанные автором в процессе исследования, и даны предложения и

рекомендации по ускорению интеграции Азербайджана в мировую экономику.

**Leyla Farhad Taghizade**

## WAYS OF ACCELERATION OF AZERBAIJAN INTEGRATION INTO THE WORLD ECONOMY (on an example of the agrarian industry)

## SUMMARY

The thesis consists of an introduction, three chapters, conclusions and bibliography.

The relevance of the theme is determined in the **introduction**. Also the degree of scrutiny of the problem, goal and objectives of the research, scientific novelty and practical significance of dissertation, as well as approbation of the study are formulated in the introduction.

The **first chapter** of the dissertation "Theoretical and methodological bases of integration into the world economy" is devoted to revealing of the characteristic features of the global economy and trends in its development, as well as the theoretical and methodological issues of integrating of the national economic system into the world economy, the theoretical bases for the production and export of agricultural products.

In the **second chapter** of the dissertation, "Comparative analysis and assessment of the current state of the agro-industrial complex in the Republic of Azerbaijan", the author conducted comparative analysis and assessment of the dynamics of development of the agrarian sector. Marketing method to accelerate the output of agricultural products to world markets and world experience in the export of agricultural products were studied.

In the **third chapter**, "Ways to increase the role of the agro-industrial complex in accelerating Azerbaijanintegration into the world economy", the author explores the issues of increasing the competitiveness of the agrarian sphere and improving of the infrastructure for the export of agricultural products.

The most important methodological and practical results of the study and scientifically grounded proposals are summarized in **conclusion**.

Avtoreferat   AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115